## 6 noyabr Azərbaycanda teleradio işçiləri günüdür

# Teleradio məkanı: uğurlar da çoxdur, problemlər də

***Balanslaşdırılmış proqram siyasəti, yüksək efir mədəniyyəti, ictimai maraqlara xidmət, maarifləndirmə, operativ və hərtərəfli məlumatlandırma teleradio yayımı həyata keçirən qurumun müvəffəqiyyətinin əsas şərtləridir.***

***Ramiz MEHDİYEV,***
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik***

❐ ***Dünya getdikcə daha artıq qloballaşır. Bu isə informasiya dövriyyəsinin sürətində və miqyasında da özünü göstərir. Başqa sözlə, müasir dünyada informasiyaları əldə etmək və onları sərfəli istiqamətlərə yaymaq sahəsində birinciliyə sahib olmaq uğrunda, sözün əsl mənasında, savaş gedir. Bu baxımdan televiziya və radio kifayət qədər böyük imkanlara malik, hər cür informasiyanı bir an içərisində bütün dünyaya yaymaq qüdrətində olan çox mühüm bir silahdır.***

Televiziya və radio özünün rəngarəng proqramları ilə insanları düşündürmək, maarifləndirmək, tərbiyələndirmək, əyləndirmək, zərurət yarandıqda isə həm də səfərbər etmək imkanına malikdir. Ona görə də teleradio fəaliyyətinin imkanlarından maksimum dərəcədə səmərəli və məqsədyönlü istifadə olunması dövlətin və millətin tərəqqisi üçün çox önəmli məsələdir. Bu sözlər Azərbaycanda fəaliyyət göstərən hər bir teleradio kanalına aiddir. Onlar müstəqil Azərbaycanın tərəqqisi naminə həqiqətən çox iş görüblər və bu gün də görməkdədirlər.

Teleradio fəaliyyəti əhalinin bütün təbəqələrinin daimi şəkildə birbaşa təmasda olduğu xüsusi bir sahədir. İnsanlar radionu dinləməklə və ya televiziya ekranı qarşısında əyləşməklə həm informasiya alır, həm maariflənir, həm də əylənirlər. Bir çoxları onları düşündürən, narahat edən problemlərlə bağlı radio və televiziyadan məsləhət və tövsiyələr umur. Əhalinin ən müxtəlif təbəqələri özlərinin arzu, istək və planlarının reallığa çevrilməsi, yaxud da öz problemlərinin aidiyyəti orqanların diqqətinə çatdırılması məqsədilə radio və televiziyadan həm də tribuna kimi istifadə edirlər.

Ölkəmizdə teleradio fəaliyyəti sahəsindəki uğurların miqyasını təsəvvürə gətirmək üçün təkcə onu yada salmaq kifayətdir ki, lap yaxın keçmişə qədər cəmi bir televiziya və bir radiosu olan Azərbaycanda bu gün ümumrespublika yayımçısı olan 13 radio, 3 regional radio, ümumrespublika yayımçısı olan 11 televiziya, 3 peyk yayımcısı, 13 regional televiziya, 17 kabel televiziyası, 24 İP televiziyası, ümumilikdə 90-a yaxın teleradio yayımçısı fəaliyyət göstərir.

İnsanları maarifləndirən, məlumatlandıran, onları düşündürən və həm də əyləndirən bu nəhəng infrastrukturda 10 min nəfərdən çox mütəxəssis çalışır. Bu yolla da Azərbaycan həqiqətləri dünyaya, dünya reallıqları isə Azərbaycan insanına çatdırırlır. Prezident İlham Əliyevin səyləri və uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan dünyada az sayda olan kosmik dövlətlər sırasında özünə yer alıb. 2013-cü ildə kosmosa çıxarılan "Azərspace – 1" rabitə peykinin xidmətindən bu gün Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələri də istifadə etməkdədir. 2015-ci ildə kosmosa göndərilmiş "Azersky" peyki isə tam olaraq Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət missiyasını həyata keçirməkdədir. Artıq mətbuatdan da məlum olduğu kimi, sentyabr ayında Azərbaycanın daha bir rabitə peyki – "Azerspace – 2" orbitə çıxarılmışdır. Azərbaycan telekanallarının tam həcmdə rəqəmsal yayıma keçməsi nəticəsində yayımın əhatə dairəsi və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dərin minnətdarlıq hissi ilə deməliyəm ki, Azərbaycanda teleradio işçiləri dünyanın heç bir ölkəsində olmadığı qədər hərtərəfli və yüksək dövlət qayğısı ilə əhatə olunub. Bir diqqət edin, yalnız son illər ərzində ölkədə teleradio sahəsinin maddi-texniki səviyyəsini daha da yaxşılaşdırmaq istiqamətində nə qədər iş görülüb. Maddi durumunu yaxşılaşdırmaq və milli teleseriallar çəkmək məqsədi ilə 2012, 2013 və 2017-ci illərdə ölkə Prezidentinin xüsusi sərəncamları ilə telekanallara böyük məbləğdə yardımlar ayrılıb. Onlarca əməkdaşa dövlət başçısının sərəncamları ilə orden, medal və fəxri adlar verilib, ehtiyacı olanlar mənzillərlə təmin olunub. Bütün bunlar o deməkdir ki, asudə vaxtını radio və ya televiziya ekranı qarşısında keçirən hər bir Azərbaycan tamaşaçısı və dinləyicisinin imkanı var ki, o, istədiyi vaxt dünyanın istənilən ölkəsinin radio və ya televiziya proqramlarını izləyə bilsin. Sözsüz ki, bu, müstəqillik illərində ölkəmizdə teleradio yayımı sahəsində əldə olunmuş çox ciddi uğurların göstəricisidir. Əlbəttə, bütün bunlara görə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur və fəxarət hissi keçirir.

Məmnunluq hissi ilə deyə bilərik ki, bu gün Azərbaycanda fəaliyyət göstərən radio və televiziya kanallarının demək olar ki, əksəriyyəti həm texniki baxımdan, həm də əməkdaşlarının peşəkarlıq səviyyəsi baxımından tamaşaçı və dinləyici auditoriyasını tam mənada qane edə biləcək keyfiyyətli məhsul istehsal etməyə qadirdir. Amma əfsuslar olsun ki, Teleradio Şurası tərəfindən aparılan monitorinqlər, habelə tamaşaçı və dinləyici müraciətləri, ən başlıcası isə cəmiyyətdə formalaşmış ictimai rəy ölkənin teleradio "mətbəxində" işlərin heç də tam qaydasında olmadığından xəbər verir.

Mövzuya giriş üçün heç də təsadüfən Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin hələ bir neçə il öncə mətbuatda dərc olunan və respublika ictimaiyyətində geniş rezonans doğuran "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" məqaləsindən götürülmüş bu sitatı epiqraf seçmədim. Çünki həmin məqalənin dərc olunduğu vaxtdan ötən illər ərzində Azərbaycanın teleradio məkanında çox ciddi uğurlar qazanılmasına, sahənin qanunvericilik bazasının təkmilləşdirilməsinə, maddi-texniki təminatının yaxşılaşdırılmasına və kadr hazırlığı məsələlərinə diqqətin artırılmasına baxmayaraq, məqalədə qaldırılan problemlərin xeyli hissəsi nəinki bu gün də qalmaqdadır, həm də zamanın diktəsi və ölkədə teleradio şəbəkəsinin genişlənməsi zəminində vəziyyət sanki bir qədər də mürəkkəbləşmişdir.

İnsanları daha çox narahat edən məsələlərdən biri, efirdə rəsmi dövlət dili olan Azərbaycan dilinin leksik və qrammatik normalarının aparıcılar tərəfindən tez-tez, həm də kobud surətdə pozulmasıdır. Bu sahədə vəziyyəti yaxşılaşdırmaq məqsədi ilə hələ 2012-ci ildən başlayaraq Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Elektron Mediyaya Yardım Fondu İctimai Birliyinin layihələri əsasında davamlı olaraq teleradio yayımçılarının monitorinqləri aparılmış, Nəsimi adına Dilçilik İnstitutu və BDU-nun dilçilik kafedralarının əməkdaşları tərəfindən aşkar edilmiş pozuntu faktları medianın iştirakı ilə Teleradio Şurası tərəfindən geniş müzakirə olunmuşdur. Ədalət naminə deməliyik ki, bütün bunların nəticəsi olaraq efirdə Azərbaycan dilinin leksik və qrammatik normalarına əməl olunması istiqamətində hissolunacaq dərəcədə irəliləyişə nail olunmuşdur. Lakin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzalamış olduğu 1 noyabr 2018-ci il tarixli fərmanda qeyd olunduğu kimi, "Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azadılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir".



Prezident fərmanında dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında "Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaradılması nəzərdə tutulur. Bu fərman bütün dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan dövləti Azərbaycan xalqının arzu və istəklərinə uyğun olaraq çoxəsrlik tarixi olan milli-mənəvi dəyərlərimizin, o cümlədən milli sərvətimiz olan dilimizin saflığının qorunması və dövlət dilindən istifadənin getdikcə daha artıq təkmilləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar artmaqdadır. Təbiidir ki, cənab Prezidentin təşəbbüsü ilə görülən bu işlər bütövlükdə Azərbaycan ictimaiyyəti tərəfindən minnətdarlıq hissi ilə qarşılanmaqdadır.

Sirr deyildir ki, teleradio yayımçıları əhalini maarifləndirmək və məlumatlandırmaqla yanaşı, həm də əyləndirmək missiyasını həyata keçirirlər. Azərbaycan efirində geniş yer alan şou xarakterli verilişlər də elə daha çox məhz bu məqsədə xidmət edir. Təbiidir ki, tamaşaçı da şoulara əylənmək və sinirlərini sakitləşdirmək məqsədilə baxır. Lakin bəzi efir aparıcılarının şitliyi, müştəbehliyi, qoyulan mövzuların bəsitliyi və primitivliyi ucbatından tamaşaçı efirdən nəinki istədiyi zövqü ala bilmir, üstəlik ya əsəbiləşir, yaxud da yad və bayağı təsirlərə məruz qalır.

Etiraf edək ki, uğurlu seçim olmayan bəzi teleaparıcılar bu gün, sözün tam mənasında, efirimizin çox ciddi probleminə çevrilib. Nədənsə teleradio qurumlarının rəhbərləri insanların gözünü qabar etmiş olan bu cür başabəla aparıcılardan əl çəkmək istəmirlər. Məgər onları daha bacarıqlı, daha istedadlı və daha peşəkar insanlarla əvəz etmək olmaz?! Yəni, atalar demişkən "xoruz olmasa, sabah açılmayacaq?!"

Son vaxtlar bəzi telekanallarda sosial şəbəkələrin populyarlaşdırdığı, əslində isə əxlaqi və psixi durumunda problemləri olan insanlar üzərində şoular qurması, cəmiyyətimiz və mənəviyyatımız üçün əsla səciyyəvi olmayan tək-tək halların daha da şişirdilərək əcayib tərzdə tamaşaçıya təqdim olunması da çox ciddi ictimai narazılıq doğrurur.

Teleradio yayımçılarının işi və qayğısı təkcə baxımlı proqramlar hazırlamaqla tamaşaçıların rəğbətini qazanmaqdan ibarət deyil. Bu, sadəcə onların gündəlik işinin görünən tərəfidir. Bununla yanaşı, onlar hazırladıqları efir materiallarından həm də qazanc əldə etmək barədə düşünürlər. Yəni, reytinq gətirən verilişlər hazırlanmalıdır ki, yaxşı reklamı da olsun. Doğrudur, dövlətin maliyyələşdirdiyi kanalların bu cəhətdən sıxıntısı yoxdur. Amma özəl yayımçılar bu yolda az qala hər qəpik uğrunda çarpışmalı olurlar. Çünki onlar məhz özlərinin qazancı hesabına maddi-texniki bazalarını təkmilləşdirir, işçilərin sosial təminatını yaxşılaşdırır, həm də dövlət büdcəsinə ödəmələr həyata keçirirlər. Lakin bu qəbildən olan qayğılarla bərabər özəl telekanallar həm də cəmiyyəti maarifləndirməyə, insanları Vətənimizə, dövlətimizə və xalqımıza məxsus dəyərlərin qorunmasına, yaşadılmasına və təbliğ edilməsinə səfərbər etməyə borcludurlar. Xatırladaq ki, bu məqam "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununda da öz əksini tapıb. Qanunun 32.0.1 maddəsində maarifçilik və mədəniyyət məsələlərinə üstünlük verilməsi, proqramların tarazlaşdırılması yolu ilə efirin kommersiya, informasiya, yaxud eyntipli digər verilişlərə yüklənməsinin qarşısının alınması əsas tələblər kimi öz əksini tapıb.

Son vaxtlar şou-biznes əhlinə məxsus dəbdəbəli evlərin, villaların və maşınların reklamı maqazin proqramlarının başlıca mövzusuna çevrilib. Açıq demək lazımdır ki, bu cür sifarişli verilişlər əksər hallarda cəmiyyət tərəfindən ikrah hissi ilə qarşılanır. Yəni, insanlar çox yaxşı bilirlər ki, alın təri ilə qazanılmış pullarla bu cür – ifrat dəbdəbə sahibi olmaq qeyri-mümkündür. İşi, vəzifəsi, qabiliyyəti, aylıq məvacibi və qazancı hər kəsə bəlli olan bəzi üzdəniraq "sənətçilərin" mənbəyi məlum olmayan pullar hesabına qurduğu hər cür dəbdəbəli həyat şəraiti başqaları üçün örnək kimi təbliğ oluna bilməz. Əksinə, əyri yollarla əldə olunmuş bahalı maşınları, oğurluq pullarla ucaldılmış dəbdəbəli villa və imarətləri təbliğ etməyin özü halal zəhmətlə dolanan vicdanlı insanlara qarşı hörmətsizlikdir. Bu cür üzdəniraq təbliğat nəticə etibarı ilə gənclərin əxlaqını pozur, xüsusən də onların peşə seçimində səhvə yol vermələrinə gətirib çıxarır. Bununla da ölkənin və millətin gələcəyi üçün əlavə problemlər yaratmış oluruq.

Etiraf edək ki, xəbər xidmətinin düzgün və səmərəli təşkili bütün dövrlərdə teleradio yayımçıları üçün prioritet istiqamət olub. Bu sahədə fəaliyyətini lazımı səviyyədə qura bilməyən yayımçılar heç zaman ciddi uğur qazana bilməyib və bundan sonra da qazanmayacaqlar. İndiki halda xəbərlər xidmətinin təşkili ilə bağlı əsas diqqət çəkən məqamlardan biri ayrı-ayrı yayımçıların sosial şəbəkələrin və bir para qeyri-ciddi saytların yoxlanılmamış informasiyalarının təsir dairəsindən çıxa bilməməsidir. Çox vaxt təqdim olunan xəbərlərin əhatə dairəsi ölkəmizin coğrafiyasını yetərincə əhatə etmir. Mərkəzdən nisbətən uzaq rayonların ictimai-siyasi və mədəni həyatına dair xəbərlər efirlərdə çox nadir hallarda yer alır. Bəzi telekanalların efirinin cəmiyyət üçün o qədər də önəmli olmayan kriminogen xəbərlərlə daha çox yüklənməsi də arzuolunmaz hal kimi dəyərləndirilməlidir.

Azərbaycanın sürətli və hərtərəfli inkişafı ilə paralel olaraq ölkə əhalisinin, yəni tamaşaçı və dinləyici auditoriyasının mədəni səviyyəsi və məlumatlılıq dərəcəsi də günbəgün artmaqdadır. İnsanlar evlərində oturub çox rahat şəkildə ölkə telekanalları ilə yanaşı, yüzdən çox xarici ölkə telekanalının verilişlərini izləmək imkanına malikdir. Ədalət naminə onu da deyək ki, ölkə telekanallarının bu cür kəskin rəqabət şəraitində işləməklə geniş tamaşaçı auditoriyasını bütünlüklə məmnun etməsi o qədər də asan iş deyildir.

İndiki dönəmdə ölkəmizdə televiziya və radio yayımının uğurları, problemləri və bu sahədə qarşıda duran vəzifələr barəsində çox danışmaq, çox yazmaq olar. Lakin bütün hallarda obyektivlik naminə nə uğurlarımızı şişirtməyin, nə də ki, problemləri bilərəkdən dramatikləşdirməyin tərəfdarıyam. Unutmamalıyıq ki, biz Azərbaycan cəmiyyətində yaşayırıq. O cəmiyyətdə ki, onun həm uğurları çoxdur, həm də problemləri. Özümüzün, ailəmizin, dostlarımızın, həmkarlarımızın, bütövlükdə cəmiyyətin hər bir üzvünün daimi təmasda olduğu televiziya və ragio da, əslində, uğurları və problemləri özündə əks etdirən güzgüyə bənzəyir. Yəni, biz özümüz necəyiksə, güzgüdəki əksimiz də elədir. Odur ki, elə yaşamaq, elə işləmək, elə düşünmək, elə davranmaq və nəhayət, elə mübarizə aparmaq lazımdır ki, özümüzü və əməllərimizi ekranda görəndə qıcıqlanmayaq. Şübhə yoxdur ki, hər il 6 noyabrı özlərinin peşə bayramları kimi qeyd edən çoxminli televiziya və radio işçiləri günü-gündən inkişaf edən, qüdrətlənən, beləliklə də Qafqazın aparıcı dövlətinə çevrilən doğma Azərbaycanımızın gələcək uğurları naminə bundan sonra daha böyük əzmkarlıq və peşəkarlıq nümunəsi nümayiş etdirəcəklər. Peşə bayramınız mübarək olsun, əziz teleradio işçiləri!

***Qafar CƏBİYEV,***
***Milli Televiziya və Radio Şurası sədrinin müavini, tarix elmləri doktoru, Əməkdar jurnalist***